# Azərbaycan-Almaniya münasibətləri strateji maraqlara söykənir

**Müasir dünyanı, xüsusilə də Avropanı bu gün Almaniyasız təsəvvür etmək çox çətindir. Qoca qitə bir sıra ixtira və kəşflərə, yeniliklərə görə alman xalqına minnətdardır. Hazırda bütün bəşəriyyət maddi və mənəvi sahədə həm də almanların yaratdığı mədəniyyətin bəhrəsindən faydalanır.**

Azərbaycan kimi Almaniya da keşməkeşli bir tarix yaşamış, dəfələrlə tarixin amansız sınaqlarına məruz qalmış, çətinliklərə sinə gərmiş, öz naliyyətlərini qoruyaraq müasir nəsillərə miras qoymuşdur. Ötən əsrin sonlarında Almaniyanın vahid dövlət halında birləşməsinə sevinən ilk xalqlardan biri Azərbaycan olmuşdur. Bunun nəticəsində qısa zaman kəsiyində Almaniya nəinki Avropada, eyni zamanda dünya miqyasında özünəməxsus söz sahibinə çevrilmişdir.

Müstəqillik əldə etdikdən sonra Azərbaycan Respublikasının xarici siyasət kursunda Avropa ölkələri, xüsusilə də dünyanın dördüncü iqtisadi qüdrəti hesab olunan Almaniya ilə münasibətlər xüsusi yer tutur. Belə ki, son onilliklər ərzində onun iqtisadi, siyasi və hərbi potensialı son dərəcə güclənmişdir. Məlumata görə, Almaniya ümumi daxili məhsulun istehsal göstəricilərinə görə Avropada birinci, dünyada isə ABŞ və Yaponiyadan sonra üçüncü yeri tutur. Eyni zamanda Almaniya dünya sənaye məhsulları ixrac edən ən böyük dövlətlərdən biridir.

Hazırda Azərbaycan Avropanın aparıcı ölkələrindən biri olan Almaniya ilə etibarlı tərəfdaş kimi öz münasibətlərini tədricən inkişaf etdirir. Təsadüfi deyil ki, qərb dünyası ilə əlaqələrdə Almaniya ilə münasibətlərə rəsmi Bakı həmişə xüsusi əhəmiyyət verir. Bu ölkə Avropa İttifaqı və NATO çərçivəsində Avropa siyasətinin formalaşdırılmasında xüsusi çəkiyə malikdir. Digər tərəfdən, onun Avropanın aparıcı dövləti rolunu təsdiqləyən güclü hərbi potensialı da mövcuddur.

Bu baxımdan bütövlükdə Cənubi Qafqaz regionu, ayrılıqda götürdükdə isə Azərbaycan Respublikası Almaniyanın strateji maraqları dairəsində olan dövlətlərdən biridir. Qeyd etmək lazımdır ki, iki ölkə arasında əlaqələrin zəngin tarixi vardır. Təqdirəlayiq haldır ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı sərəncama əsasən Cənubi Qafqazda alman məskənlərinin salınmasının 200 illik yubileyi münasibətilə 2017-ci ildə ölkəmiz tərəfindən bir sıra tədbirlər və müxtəlif layihələr həyata keçirildi. Bu tədbirlərdə Almaniyadan olan nümayəndələr də iştirak etdilər.

Azərbaycanın əlverişli coğrafi və geostrateji mövqeyi, habelə regionun ən böyük dövləti olmaq etibarilə zəngin təbii ehtiyat və sərvətlərə malik olması amili də alman iş adamlarının ölkəmizə olan marağını xeyli artırmışdır.

Təsadüfi deyil ki, Almaniya 1992-ci il yanvarın 12-də Azərbaycanın dövlət müstəqilliyini tanımışdır. Azərbaycan ilə Almaniya arasında diplomatik münasibətlər isə 1992-ci il fevralın 20-də qurulmuşdur. Müəyyən hazırlıqdan sonra 1992-ci il sentyabrın 2-də Azərbaycanın Almaniyada səfirliyi açılmışdır. Almaniyanın Azərbaycandakı səfirliyi isə 1992-ci il sentyabrın 22-də fəaliyyətə başlamışdır.

Ötən dövr ərzində qarşılıqlı əlaqələrin daha da inkişaf etdirilməsini zəruri edən bir sıra amillər mövcuddur. Əvvəla, Almaniya Qərbin digər dövlətlərindən, xüsusilə də ABŞ və Fransadan fərqli olaraq erməni icmasının zəif olduğu, erməni lobbisinin isə demək olar ki, olmadığı dövlətlərdən biridir.

İkincisi, Almaniyada türk icması sayca çoxdur və mütəşəkkildir. Onlar bu ölkənin biznes dairələrində güclü nüfuza və təsir imkanlarına malikdirlər. Türk icması geniş lobbiçilik fəaliyyəti ilə də məşğuldur.

Üçüncüsü, rəsmi Bakı Avratlantik məkana inteqrasiya və Avropa Birliyi ilə sıx əməkdaşlıq prosesində Almaniyanın dəstəyinə xüsusi önəm verir. Bunun nəticəsidir ki, hər iki ölkə aparıcı Avropa strukturlarının fəaliyyətində yaxından əməkdaşlıq edir, müxtəlif məsələlərdə bir-birlərinə dəstək verirlər.

Əməkdaşlığın genişləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlər, xüsusilə də dövlət başçılarının səfərləri əhəmiyyətli rol oynayır. 1995-ci ilin dekabrında Almaniyanın o zamankı xarici işlər naziri Klaus Kinkelin Azərbaycana, 1996-cı ilin iyulunda isə ümummilli lider Heydər Əliyevin Almaniyaya səfərləri iki ölkə arasında əlaqələri keyfiyyətcə yeni səviyyəyə yüksəltdi.

Azərbaycanın Avropada etibarlı tərəfdaş kimi gördüyü Almaniya ölkəmizlə iqtisadi-ticarət sahəsində əlaqələrini ildən-ilə gücləndirir. Xüsusilə də Azərbaycanın Avropanın siyasi və iqtisadi həyatında getdikcə daha böyük rol oynayan Avropa Birliyi ilə əlaqələrinin genişlənməsinə ciddi dəstək verir.

Son illər Azərbaycanla Almaniya arasında iqtisadi münasibətlər yüksəlməkdədir. İndiyədək iki ölkə arasında 70-ə yaxın sənəd, o cümlədən iqtisadi sahədə investisiyaların təşviqi və qorunması, ikiqat vergi tutma haqqında sənədlər imzalanmışdır.

Bu gün Azərbaycan iqtisadiyyatına kapital qoyuluşunun həcminə görə Almaniya şirkətləri qabaqcıl mövqeyə malikdir. Çoxsaylı alman şirkətləri və kompaniyaları Azərbaycan iqtisadiyyatına sərmayə qoymaqda davam edirlər. Hazırda Azərbaycanda 200-dən çox alman şirkəti fəaliyyət göstərir. Almaniya tərəfindən respublika iqtisadiyyatının müxtəlif sahələrinə 555,8 milyon dollar həcmində investisiya qoyulub. Almaniyanın KfW Bankı, Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GIZ), ölkələrimiz arasında Ticarət və İnvestisiyalar üzrə Yüksək Səviyyəli İşçi Qrupu, Alman-Azərbaycan Xarici Ticarət Palatasının fəaliyyəti də ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişafı baxımından önəmlidir.

Azərbaycanın iqtisadi-ticarət həyatında “Siemens”, “Ferrostal”, “İnterselekt”, “Mercedes benz” kimi iri şirkətlər fəal iştirak edirlər. “Folksvagen” kimi nüfuzlu şirkətlər daxil olmaqla 150 alman müəssisəsi Azərbaycandakı fəaliyyətlərində böyük uğurlar qazanmışlar. Statistikaya əsasən, 2017-ci ildə Almaniyanın Cənubi Qafqaz ölkələri ilə ümumi ticarətində Azərbaycanın payı, təxminən 66 faiz təşkil etmişdir. Təkcə menecer təlimi sahəsində əməkdaşlıq proqramı çərçivəsində 2009-2017-ci illərdə 338 sahibkar və gənc menecer Almaniyada ixtisasartırma kursu keçmişdir. Eyni zamanda Sumqayıt Kimya Sənaye Parkında Almaniya təcrübəsi əsasında sənaye sahəsində Peşə Tədris Mərkəzi yaradılır.

Rəsmi Berlinin Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin gerçəkləşməsində əsas söz sahibi kimi çıxış edən Azərbaycanın bütövlükdə Avropanın enerji təhlükəsizliyindəki mühüm rolunu yüksək qiymətləndirməsi, onun respublikamız ilə enerji sektorunda fəal əməkdaşlıq niyyətini izhar edir. Eyni zamanda “Cənub Qaz Dəhlizi”nin açılması Avropanın enerji təminatında böyük rol oynayacaq.

Ticarət dövriyyəsinin həcminə görə Azərbaycanın ticarət tərəfdaşları arasında Almaniya 5-ci yerdədir. Hazırda ölkələrimiz arasında 2,5 milyard avro həcmində ticarət mübadiləsi mövcuddur. Azərbaycanda Almaniyanın xarici ticarət palatası uğurla fəaliyyət göstərir. Almaniya Kansleri Angela Merkelin Bakıda verdiyi bəyanatlardan birində Azərbaycanın Cənubi Qafqazda Almaniyanın ən böyük ticarət tərəfdaşı olması etiraf edildi.

Almaniya Şərqlə Qərbi birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istismara verilməsini də yüksək dəyərləndirir. Bu yol Şərqdən gələn yüklərin bütün Avropaya, o cümlədən Almaniyaya daha tez və qısa yolla çatdırılmasının etibarlı vasitəsidir.

Mədəniyyət sahəsində əlaqələr sürətlə inkişaf edir. Azərbaycan 2017-ci ildə və bu il ərzində Almaniyada keçirilmiş müxtəlif sərgilərdə uğurla iştirak etmişdir. Humanitar sahədə əlaqələr də inkişaf etdirilir. Bu sahədə Almaniya Ermənistana deyil, Azərbaycana daha çox yardımlar göstərən dövlətlər sırasındadır.

İki ölkə arasında siyasi münasibətlərin yüksələn xətlə inkişaf etdirilməsi belə bir qənaətə gəlməyə imkan verir ki, yaxın gələcəkdə hər iki ölkə bunun bəhrəsini daha çox hiss edəcək və qarşılıqlı maraqlara əsaslanan səmərəli əməkdaşlıq strateji maraqlara xidmət edəcəkdir.

**Atamoğlan MƏMMƏDLİ.**